*AMEA Filologiya və sənətşünaslıq, 2024, № 1* *ISSN 2663-4368*
*Səhifə: 52-58* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2024.1.52*

# Türk dünyasında iz qoymuş mütəfəkkirlər: Əli bəy Hüseynzadə və Əhməd bəy Ağaoğlu

**Aytək Məmmədova**
Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
E-mail: a.z.m-9@mail.ru
ORCID ID: orcid.org/0000-0002-4915-6263

**Annotasiya.** Məqalədə böyük Azərbaycan mütəfəkkirləri Əli bəy Hüseynzadənin (1864-1940) və Əhməd bəy Ağaoğlunun (1869-1939) yaradıcılıq irslərinə diqqət yetirilir. Əli bəy Hüseynzadənin Türk düşüncəsinə dair baxışlarının, Türkləşmək, İslamlaşmaq və Avropalaşmaq fikrinin Türkiyənin ictimai xadimi Ziya Gökalpa təsir etdiyi göstərilir. Məqalədə "Türkləşmək, İslamlaşmaq, Müasirləşmək" düsturunun Ziya Gökalp vasitəsilə Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən, görkəmli dövlət xadimi Məhəmməd Əmin Rəsulzadəyə (1884-1955) təsiri, Azərbaycanın bütövlüyü ideyasının səciyyələndirilməsi baxımından Azərbaycan bayrağında da "Türkləşmək, İslamlaşmaq, Müasirləşmək" düsturunun əks olunduğu bildirilir.
Məqalədə Türk dünyasının böyük şəxsiyyəti Əhməd bəy Ağaoğlunun Azərbaycanın qədim yaşayış məskəni olan Şuşada doğulduğu, ilk və orta təhsilini də Şuşada aldığı qeyd edilir. Mütəfəkkir Parisdə Sorbonna Universitetində oxumuş, tələbə olduğu dövrdə Parisdə Şərqə aid məqalələr yazaraq Tiflisdə dərc edilən "Kavkaz" qəzetinə göndərmişdi. Təhsilini tamamladıqdan sonra vətənə qayıtmış, bir müddət sonra ailəsilə Türkiyəyə köçmüş, elmi və siyasi fəaliyyətini orada davam etdirmişdir. Məqalədə Əli bəy Hüseynzadənin və Əhməd bəy Ağaoğlunun fəaliyyətləri ilə Türk dünyasının düşüncə və mədəniyyət tarixində iz qoyması, 2024-cü ildə Əli bəy Hüseynzadənin anadan olmasının 160, Əhməd bəy Ağaoğlunun isə anadan olmasının 155 illiyi tamam olduğu bildirilir.
**Açar sözlər:** Azərbaycan, Türk dünyası, tarix, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu

**Məqalə tarixçəsi:** göndərilib – 08.02.2024; qəbul edilib – 20.02.2024

# Thinkers who left a trace in the Turkic world: Ali bey Huseynzade and Ahmed bey Agaoglu

**Aytek Mammadova**
Doctor of Philosophy in Philosophical Sciences, Associate professor
Institute of Philosophy and Sociology of ANAS
E-mail: a.z.m-9@mail.ru
ORCID ID: orcid.org/0000-0002-4915-6263

**Abstract.** The article examines the creative heritage of the great Azerbaijani thinkers Ali bey Huseynzade (1864-1940) and Ahmed bey Agaoglu (1869-1939). It is shown that the views of Ali bey Huseynzade on Turkic thought, the ideas of Turkism, Islamism, and Europeanism influenced the Turkish public figure Ziya Gokalp. This formula through Ziya Gokalp influenced the founder of the Azerbaijan Democratic Republic, the outstanding statesman Mahammad Amin Rasulzadeh

(1884-1955), and through this formula for the idea of integrity of Azerbaijan on the flag, the concepts of "Turkism, Islamism, Modernism" were reflected.
The article mentions that the great personality of the Turkic world, Ahmed bey Agaoglu, was born in Shusha, an ancient settlement of Azerbaijan, and received his primary and secondary education there. The thinker studied at the Sorbonne University in Paris, as a student, wrote articles about the East and sent them to the newspaper "Kavkaz" published in Tbilisi. Having completed his education, he returned to his homeland, after a while he and his family moved to Turkey, where he continued his scientific and political activities. The article says that the activities of Ali bey Huseynzade and Ahmed bey Agaoglu left a mark in the history of thought and culture of the Turkic world. In 2024, the celebration of the 160th anniversary of the birth of Ali bey Huseynzade and the 155th anniversary of the birth of Ahmed bey Agaoglu will end.
**Keywords:** Azerbaijan, Turkic world, history, Ali bey Huseynzade, Ahmed bey Agaoglu

**Article history:** received – 08.02.2024; accepted − 20.02.2024

## Giriş / *Introduction*

XIX əsrin sonlarından başlayan və XX əsrin əvvəllərində davam edən milli oyanış hərəkatı, müstəqil dövlətçiliyin qurulmasının nəzəri əsasları, bununla bağlı olaraq milli ideya və ideologiya, mənəvi dəyərlərlə əlaqədar məsələlər Azərbaycan tarixində parlaq şəkildə öz əksini tapmışdır. Maarif xadimi, təbiətşünas alim Həsən bəy Zərdabi (Məlikov) (1842-1907) 1875-ci ildə "Əkinçi" qəzetinin əsasını qoymaqla tarixdə milli mətbuatımızın banisi kimi şərəfli bir yer tutmuşdur. Bundan sonra Azərbaycanın düşüncə sahibləri tərəfindən dərc edilən "Kaspi", "Ziyayi-Qafqaziyyə", "Kəşkül", "Şərqi-Rus", "Tərəqqi" və başqa qəzetlər, eləcə də "Zənbur", "Molla Nəsrəddin", "Füyuzat" jurnalları bütün türk xalqlarının düşüncə və mədəniyyət tarixində özünəməxsus yer tutaraq, türklərin elmi-mədəni tərəqqisində mühüm əhəmiyyət daşımışdır.

## Əsas hissə / *Main Part*

Dahi mütəfəkkirlər Əli bəy Hüseynzadə (1864-1940) və Əhməd bəy Ağaoğlu (1869-1939) Azərbaycanın, ümumiyyətlə Türk dünyasının düşüncə tarixində, türkdilli xalqların mədəniyyətinin inkişafında, maariflənməsində önəmli xidmət göstərmişlər.

Əli bəy Hüseynzadənin uşaqlığı babasının – Qafqaz Şeyxülislamı Əhməd Hüseynzadə Səlyaninin yanında keçmiş, ilk təhsilini Tiflis Türk – Müsəlman məktəbində almışdır. Sonra təhsilini Tiflis klassik gimnaziyasında davam etdirmişdir. O, babasının və Azərbaycan dramaturgiyasının banisi, ictimai xadim Mirzə Fətəli Axundzadənin (1812-1878) tərbiyəsi, onların söhbətlərinin təsiri altında böyümüşdür.

Türkiyənin görkəmli ictimai xadimi Ziya Gökalp (1876-1924) Əli bəy Hüseynzadədən bəhs edərkən yazmışdır ki, Əli bəy Hüseynzadə Rusiyadakı millətçilik cərəyanlarının təsiriylə türkçü olmuşdur. Xüsusilə hələ kollecdə ikən gürcü gənclərindən son dərəcə millətsevər olan bir yoldaşı ona millət sevgisini aşılamışdır [3, s.7].

Məlum olduğu kimi, Əli bəy Hüseynzadə babasının – Qafqaz Şeyxülislamı Əhməd Hüseynzadənin və Mirzə Fətəli Axundzadənin söhbətlərindən faydalanmışdır. Şübhəsiz ki, onda artıq millət sevgisi uşaqlıqdan formalaşmışdı. Digər tərəfdən, Əli bəy Hüseynzadə ilə şəxsən tanış olan türkiyəli alim Hilmi Ziya Ülkən qeyd etmişdir ki, Türkçülüklə bağlı fikirlərinin formalaşmasında Əli bəy Hüseynzadəyə bu iki şəxsiyyətin böyük təsiri olmuşdu. Mirzə Fətəli Axundzadə Ziya Gökalp tərəfindən də böyük türkçü kimi qəbul edilmişdir. Bu arqumentlər Ziya Gökalpın Əli bəy Hüseynzadəyə bir gürcü

yoldaşının ona millət sevgisini aşılaması haqqında yazdığı faktı təkzib edir.

Hilmi Ziya Ülkənin atası, təbib və kimyaçı professor Mehmet Ziya bəy Ülkən (1870-1951) Əli bəy Hüseynzadə ilə İstanbulda Hərbi Tibbiyyədə tələbə yoldaşı olmuşdur. Bu baxımdan alim Əli bəy Hüseynzadə haqqında yazarkən həm özünün, həm də atasından eşitdiyi xatirələri qələmə almışdır.

Hilmi Ziya Ülkən yaradıcılığının ilk dövrlərində, yəni bədii əsərlər qələmə alarkən Əli bəy Hüseynzadə ilə məsləhətləşdiyini, onunla fikir mübadiləsində olduğunu bildirmişdir: "Anadolu nağıllarından "Tahirlə Zöhrə"ni mənzum pyes halında yazmışdım. "Dədə Qorqud" hekayələrindən Təpəgözü mənzum bir nağıl halında yazırdım. Sonra "Kərəm"i yazmağı düşünürdüm" [7, s.8].

Hilmi Ziya Ülkən Əli bəy Hüseynzadəni gənclərin qayğısına qalan, onlara yol göstərən bir insan kimi xarakterizə etmişdir. Mütəfəkkir aktiv siyasətlə məşğul olan Ziya Gökalpa yaxınlaşmanın çətin olduğunu bildirərək göstərmişdir: "Məhz bu sırada Hüseynzadə türkçülərin rəhbərlərindən və bizi dinləyən, yol göstərən biricik insan oldu. Bir gün Türk Ocağında (1920) bu baba və nəvə kimi məhrəm və isti, içimi açacaq bir böyük insan tapdığım üçün sevinc içində onunla danışdığım sırada yeni yazmağa hazırlandığım bir dramı, "Şahnamə"də keçən "Siyavuş" hekayəsinə aid dramı anladırdım. Siyavuş burada İranla Turan arasındakı mübarizədə vətən və insanlıq duyğularının çəkişməsinin qurbanı olur. Hələ nəzm və ya nəsrmi yazacağımı qərarlaşdırmamışdım. Bu bəhsin tam əhli olan Hüseynzadə Siyavuş hekayəsi üzərində ətraflı izahat verdi. Günlərcə bu mövzuda danışdıq. Mən yazdıqlarımı oxuyurdum, o tənqid edirdi. "Tahirlə Zöhrə" pyesini də atamın evində və onun Süleymaniyə Camisinə gedən küçədəki kirayə qaldığı evdə günlərcə dinlədi" [7, s.8]. Hilmi Ziya Ülkən Əli bəy Hüseynzadə ilə söhbətlərinin ədəbiyyatdan ibarət olmayıb, fəlsəfə sahəsində də fikir mübadiləsində olduqlarını bildirmişdir.

Azərbaycan Demokratik Respublikasının banilərindən, görkəmli dövlət xadimi Məhəmməd Əmin Rəsulzadəni (1884-1955) "Azərbaycan Türklüyünü qurtarmağa çalışanlardan" biri kimi təqdim edən Hilmi Ziya Ülkən onunla Əli bəy Hüseynzadə vasitəsilə tanış olduğunu bildirmişdir. Hilmi Ziya Ülkən yazmışdır ki, Rəsulzadə İstanbula gəlmişdi, Hüseynzadə məni onunla tanış edərək "ikiniz də "Siyavuş"u yazırsınız. Biriniz siyasi, digəriniz milli-insani qayə ilə. Tanış olun" demişdi. Rəsulzadənin həmin ildə (1921) "Əsrimizin Siyavuşu" adlı əsəri Türkiyədə çapdan çıxdı. Bu əsərdə Azərbaycanın siyasi taleyi milliyyətçilik ilə kommunizmin arasında əzilmiş olaraq göstərilir və bu Türk ölkəsi Siyavuşun dramına bənzədilirdi [7, s.10].

Ə.Hüseynzadənin Türk düşüncəsinə dair baxışları – Türkləşmək, İslamlaşmaq və Avropalaşmaq fikri Ziya Gökalpa da təsir etmişdi. Türkiyəli alim Hilmi Ziya Ülkən Türkləşmək, İslamlaşmaq və Avropalaşmaq düsturunun ilk dəfə sistemsiz, bir az qeyri-müəyyən şəkildə Əli Suavi (1839-1878) tərəfindən irəli sürülüb və müdafiə edildiyini yazmışdır: "1905-ci ildə Tiflisdə Əli bəy Hüseynzadə tərəfindən irəli sürülən "Türkləşmək, İslamlaşmaq və Avropalaşmaq" fikri, 1911-ci ildə hərarətli tərəfdarlar tapdı. Ziya Gökalp "Türkləşmək, İslamlaşmaq, Müasirləşmək" adlı məqalələrini və 1918-ci ildə bu məqalələrdən ibarət kitabını çıxardı. Fəqət Əli bəy Hüseynzadənin məqaləsində Əli Suavinin, bu son əsərdə də Hüseynzadənin adları çəkilmir [6, s.269]. Bununla birlikdə, Gökalp, Əli bəy Hüseynzadənin dəyərini anlamışdı və onu "Yalavaç" adlandırmışdır. "Yalavaç" sözü isə peyğəmbər, gələcəyi xəbər verən, müjdəçi və s. kimi mənaları daşıyır.

Türkiyənin böyük yazarı Əli Canip Yöntem (1887-1967) "Ziya Gökalpa Türkçülüyü aşılayan adam" məqaləsində ona iki şəxsin təsir etdiyini bildirmişdir. Alim onlardan birinin Abdullah Cevdət olduğunu yazmışdır. Əli Canip Yöntem göstərmişdir ki, Abdullah Cevdət məmurluğu zamanında Ziya Gökalp hələ yetişməkdə olan bir uşaqdı. O, intihara təşəbbüs edərkən onu ilk müalicə edən doktor Abdullah Cevdət idi. Ziya Gökalpın İslam fəlsəfəsini, İslam təsəvvüfünü oxuyan və anlaya bilən zəkasına heyran olmuş Abdullah Cevdət ona "fransızca öyrən, fransızca öyrənməzsən, bu islami bilgilərdən həyat boyunca, heç bir istifadə edə bilməzsən!" demişdi. Məhz Ziya Gökalp bundan sonra öz-özünə bu dili öyrənmişdi [8, s.259].

Əli Canip Yöntem Ziya Gökalpı Türkçülük sahəsində oyandıran ikinci şəxsin isə Əli bəy Hüseynzadə olduğunu yazmışdır: "Bu oyanış qarşı-

qarşıya görüşüb tanış olmaqla deyil, Əli bəy Hüseynzadənin hələ əvvəl Bakıda nəşr etdiyi ("Füyuzat") və buna bənzər dərgiləri oxumasından hasil olmuşdur" [8, s.259].

Ziya Gökalp "ümumi türk millətinin vətəni haradır?" sualını belə cavablandırır:

*Vətən nə Türkiyədir türk üçün, nə Türkistan;*
*Vətən böyük və müəbbəd bir ölkədir: Turan.*
[4, s.63]

Əli Canip Yöntem bu beytdən bəhs edərkən, Əli bəy Hüseynzadənin Ziya Gökalpa təsirini yada salaraq bildirmişdir ki, bu mənzumədəki ruhu Ziya Gökalp özünə Turan soyadı verən Əli bəy Hüseynzadədən almışdır [8, s.260].

Qeyd etmək lazımdır ki, "Türkləşmək, İslamlaşmaq, Müasirləşmək" düsturu Ziya Gökalp vasitəsilə Məhəmməd Əmin Rəsulzadəyə təsir etmiş, Azərbaycanın bütövlüyü ideyasını səciyyələndirən "Türkləşmək, İslamlaşmaq, Müasirləşmək" düsturu üçrəngli bayraqda da öz əksini tapmışdır.

Türk dünyasının böyük şəxsiyyəti Əhməd bəy Ağaoğlu Azərbaycanın qədim yaşayış məskəni olan Şuşada doğulmuş, ilk və orta təhsilini Şuşada rusdilli gimnaziyada almış, həmin illərdə evdə farsca, ərəbcə öyrənmişdir. Hilmi Ziya Ülkən onun haqqında yazmışdır: Ə.Ağaoğlu "Peterburqda Politexnik İnstitutuna daxil olduğu halda səhhəti təhsilinə mane olduğu üçün ölkəsinə qayıdır. Yaxşılaşdıqdan sonra Parisə gedərək Sorbonna Universitetinin Tarix və Filologiya bölümündə təhsilinə davam edir. Eyni zamanda, Hüquq fakültəsinə də qəbul olunur". Ə.Ağaoğlu tələbə olarkən Parisdə Şərqə aid məqalələr yazaraq Tiflisdə dərc edilən "Kavkaz" qəzetinə göndərirdi [6, s.408].

Azərbaycan mütəfəkkiri 1892-ci ildə Londonda keçirilən Şərqşünaslar Konqresində məruzə ilə çıxış etmişdir. Ə.Ağaoğlu konqreslə bağlı təəssüratlarında göstərirdi ki, şərqşünas alim Maks Müller konqresin açılışını London Universitetində edərək, konqresin elmi məqsədinin Şərqlə Qərbi əvvəlcə elmi-zehni yolla və bundan sonra isə əməli-maddi yolla yaxınlaşdırmaqdan ibarət olması ilə əlaqədar çıxış etmişdir. Maks Müllerin bu ideyasının isə onun "Kavkaz"dakı sonuncu məqaləsində ifadə etdiyi ideyaya tam uyğun gəldiyi bildirilir [1, s.316].

Əhməd bəy Ağaoğlu konqreslə bağlı təəssüratlarında Hayd Parkı gəzərkən özünü Şuşada hiss etdiyini bildirmişdir. Mütəfəkkirin Londonda keçirilən bu konqresdə müxtəlif ölkələrin alimləri ilə birgə iştirakı Azərbaycan, ümumiyyətlə, bütün Türk dünyası üçün böyük əhəmiyyət kəsb edir.

Hilmi Ziya Ülkən 1909-cu ildə Əhməd bəy Ağaoğlunun Türkiyəyə gəldiyini, Darülfünunun rus dili və Türk tarixi müəllimliyinə təyin edildiyini, 1912-ci ildə "İttihad və Tərəqqi Partiyası"nın mərkəzi ümumi üzvlüyünə və Karahisar deputatlığına seçildiyini yazmışdır. O, Birinci Dünya müharibəsi boyunca Darülfünun müəllimliyilə paralel olaraq qəzetdə də çalışmışdır.

Qeyd etmək lazımdır ki, Əhməd bəy Ağaoğlu Maltada Ziya Gökalpla birlikdə sürgündə olmuşdur. Sitarə xanımla Əhməd bəyin məktublarından da məlum olduğu kimi, onlar ailəlikcə yaxın idilər. Azərbaycanın ictimai xadimi, yazıçı, 1919-cu ildə Azərbaycan Demokratik Respublikası zamanında Türkiyədə səfir işləmiş Yusif Vəzir Çəmənzəminli (1887-1943) Sitarə xanımın qohumu idi. Əhməd bəy Maltada sürgündə olarkən ailəsinə göndərdiyi məktublardan birində onunla maraqlanmışdır.

Əhməd bəy Ağaoğlunun həyat yoldaşı Sitarə xanım əsl türk qadınına məxsus keyfiyyətə sahib olmuş, onun ən yaxın dostu olmaqla yanaşı, övladlarının təlim-tərbiyəsində də böyük rol oynamışdır. Anasının oxuyub yazmaqdan başqa təhsili olmadığını bildirən Türkiyənin ictimai xadimi və yazıçısı Səməd bəy Ağaoğlu (1909-1982) qeyd etmişdir ki, fəqət əski, əsl bir Azəri ailəsinin maddi, mənəvi zənginliyi içində inkişaf edən incə zəkasının, həssas ruhunun yaratdığı romantik mizacı bir xalq adamı olan atamın əsəbi, dözümsüz zəka və xarakteri ilə durmadan çarpışdı, bu zəka və xarakterin qaba tərəflərini silərək Ağaoğlu ailəsinin cəmiyyət içindəki yerini almasına ən böyük yardımı etdi. Atamın düşmənləri belə bu qadının qarşısında kinlərini, həsədlərini unutmaq, heç deyilsə, göstərməmək məcburiyyətini duydular [2, s.156].

Əhməd bəy Ağaoğlu Türkiyəyə köçmək məcburiyyətində qalarkən Sitarə xanım hər zaman olduğu kimi, yenə də onun yanında idi. Səməd bəy Ağaoğlu yazırdı: "Atamın Azərbaycanda, bir tərəfdən rus idarəsinə, digər tərəfdən fanatizmə, cəhalətə, geriliyə qarşı açdığı müca-

dilənin acı mərhələləri də həyat yoldaşını mənən şiddətlə üzürdü. Ərinin başladığı mücadilə, nəhayət, günün birində həyatını təhlükəyə qoyacaq bir hal aldı. O zaman konstitusiyanı qəbul və elan etdirmiş olanlar arasında Parisdə tələbə ikən tanıdığı Dr. Nazim, Əhməd Rza kimi dostları olan atam, Türkiyəyə hicrət etmək qərarını verdi, anama "Mən getməyə məcburam, dedi, bu əsir Türk Yurdunu qurtaracaq olan azad türklərin arasında olmalıyam. Səni ailəndən, məmləkətindən zorla ayırmaq istəmirəm, istəyirsən qal!" Anam cavab verdi: "Ölüncəyə qədər səninlə bərabər olacağam" [2, s.157-158].

Səməd bəy Ağaoğlu uşaqlıq illərinə aid xatirələrində anasının Məhəmməd Füzulinin məşhur "Məni candan usandırdı, cəfadan yar usanmazmı?" qəzəlini azərbaycanca şirin bir ahənglə söylədiyini bildirmişdir.

Sitarə xanım ağlı, zəkası və uzaqgörənliyi ilə Əhməd bəy Ağaoğlunun ən yaxşı məsləhətçisi və dayağı olmuşdur. Səməd bəy Ağaoğlu öz xatirələrində bunu bir neçə faktla göstərmişdir. Anasının iztirablardan güc alan bir qadın olduğunu bildirən Səməd bəy qeyd etmişdir ki, fəlakət illərində atamın əsarətdə və ya uzaq yerlərdə olan dostlarının ailələrinin də nəhayətsiz bir şəfqətlə imdadına çatmağa çalışırdı. İşğal altındakı İstanbulda uşaqlarının əllərindən tutaraq mitinqlərə gedir, bunları hazırlayanlara yollar göstərirdi. Anadoluya keçmək üçün bir neçə gün gözdən itməsi lazım gələn dostları evimizdə saxlayır, erməni fədailərinin şiddətlə izlədikləri Azərbaycan Demokratik Respublikası dövründə nazir işləmiş Behbut xan Cavanşiri cəsarətlə evində gizlədirdi.

Səməd bəy Ağaoğlu Behbut xanın öldürülməsi hadisəsi haqqında yazırdı ki, burada da anamın hadisələri çox yaxşı sezən ruh qabiliyyətinə yeni bir misal vermək istəyirəm. Behbut xan evimizdə on, on beş gün qaldıqdan sonra ona qarşı artıq heç bir hücum edilməyəcəyi qənaətiylə meydana çıxmağa qərar verdi. Anam buna şiddətlə etiraz etdi: "Xeyr, dedi, küçəyə çıxdıqdan iyirmi dörd saat sonra səni öldürəcəklər". Anamı dinləməyən Behbut xan həqiqətən iki gün sonra erməni fədaisi Torlakyan tərəfindən "Pera-Palas" hotelinin önündə bir gecəyarısı öldürüldü [2, s.172].

Bu faktlardan biri də mütəfəkkirin "Akın" qəzetinin çap etdirməsi ilə əlaqədardır. S.Ağaoğlu yazır ki, Əhməd bəy Sitarə xanımın cehizi olan xalılarını satıb, iki nəfərlə birgə qəzet çıxarmaq istədiyini bildirərkən, o bu sualı verir: "Çox yaxşı Əhməd, yalnız sən bu qəzeti kimlərlə çıxaracaqsan?" Əhməd bəy "birisini tanıyıram, digəri də yaxşı bir adama bənzəyir" deyir. Sitarə xanım isə "Yaxşı bilmədiyin, huyunu-suyunu tanımadığın insanlarla işə girişmə" deyə fikrini bildirir. Lakin Əhməd bəy Ağaoğlu son qəzeti olan "Akın"ı çap etdirir [2, s.175].

Zaman isə Sitarə xanımın haqlı olduğunu göstərir. Belə ki, qəzetdən Əhməd bəyin əleyhdarları silah kimi ona qarşı istifadə edib, Atatürklə münasibətlərini pozmağa çalışmışdılar.

"Akın" qəzetinin 1933-cü ildə bağlandığını bildirən Səməd bəy Ağaoğlu göstərmişdir: "Bir müddət keçdikdən sonra Darülfünun islahatı sırasında atasını işdən çıxardılar. O zaman Atatürkə çox yaxın olan bir dostu Əhməd bəyə onun ortaqlarından birinin bütün xüsusi danışıqları, qəzetin içində olub-bitənləri müntəzəm məlumat ötürməsi xəbərini vermişdi" [2, s.177].

Azərbaycan mütəfəkkiri Türkiyədə yaşasa da, doğulub böyüdüyü Şuşanı unutmamışdı. Ə.Ağaoğlu Maltada iki ilə yaxın sürgündə olarkən ailəsinə yazdığı məktublarında Qarabağın təbiətinin gözəlliyini tərənnüm etmiş, Şuşa qalasını, Daşaltını, Dəlikdaşı və başqa dağları, yerləri yada salmışdır. Bu faktlar onun vətənpərvər ziyalı və elinə-obasına bağlı olduğunu göstərir. O, məktublarında övladları Süreyya xanım, Tazə xanım Taşkıran, Abdurrəhman bəy, Abdussəməd bəy (Səməd bəy), Gültəkin xanım haqqında narahatlığını ifadə edir, onların təhsilləri və işləri ilə maraqlanırdı. Qeyd etmək lazımdır ki, Əhməd bəyin övladları ataları kimi Türkiyənin tanınmış ictimai-siyasi və mədəniyyət xadimlərindən olmuşlar.

Əhməd bəy Ağaoğlunun Əli bəy Hüseynzadəyə yazdığı məktublarından məlum olur ki, Əhməd bəy Əli bəyə dost, qardaş kimi yanaşmış, təhsillərini İstanbulda davam etdirmələri üçün qızları Süreyya xanım və Tazə xanım Əli bəy Hüseynzadənin evində yaşamışlar. Ə.Ağaoğlu məktubunda türk xanımlarının ictimai həyatda aktiv iştirak etmələrini arzuladığını yazmışdır: "Mən türk qızlarının sərbəst olmalarını həyata qarışmalarını və bütün fəaliyyəti ilə ictimaiyyədə iştirak etmələrini arzu edirəm. Qızla-

rımın da o yolda hazırlanmış olmalarını istəyirəm” [5, s.17].

Səməd bəy Ağaoğlu atasının dostu Əli bəy Hüseynzadəni “bəyaz saqqallı, çəhrayı üzlü, gözəl gözlü, şair, rəssam, musiqişünas, filosof, qəzetçi, münəccim, professor, doktor Qafqazlı” kimi təqdim etmişdir. Görkəmli yazıçı “bu iki insan, atamla o necə anlaşdılar?” sualını verdikdən sonra bildirmişdir ki, atam əsəbi, sərt, bir az tələskən idi, o biri yumşaq, sakit, ağırdı. Bu yaradılış fərqinə rəğmən, bərabər mücadilə qəzetləri çıxardılar, bərabər inqilab hərəkatlarına girdilər, gizli cəmiyyətlər qurdular.

**Nəticə / *Conclusion***

Səməd bəy Ağaoğlu Əli bəy Hüseynzadənin Türk dünyasındakı fəaliyyətini, xidmətlərini belə qiymətləndirmişdir: “Dövrünün böyük mürşidinə “İslam ümmətindən, Qərb mədəniyyətindən, Türk Millətindən olmaq” ideyasını o ilham etdi. Osmanlı İmperiyasının ümmət siyasətilə ayaqda durmayacağı anlaşılınca vicdanlarda bir vətən olaraq “Turan” yolunu o göstərdi. Xeyr, xeyr mübaliğə etmirəm; atamın bu dostu bütün bir dövrün həqiqətən gizli həyat mənbələrindən biri olmuşdur” [2, s.82-83].

2024-cü ildə Əli bəy Hüseynzadənin anadan olmasının 160 illiyi, Əhməd bəy Ağaoğlunun isə anadan olmasının 155 illiyi tamam olur. Azərbaycanın iki mütəfəkkiri fəaliyyətləri ilə Türk dünyasında iz qoymuş böyük şəxsiyyətlərdir.

**Ədəbiyyat / *References***

1. Ağaoğlu, Əhməd bəy. Seçilmiş əsərləri (tərtib edənlər: Əziz Mirəhmədov, Vilayət Quliyev). – Bakı, 2007.
2. Ağaoğlu, Samet. Babamın Arkadaşları. – İstanbul, Nebioğlu Yayınevi.
3. Gökalp, Ziya. Türkçülüğün Esasları (hazırlayanlar: Mahir Ünlü, Yusuf Çotuksöken). – İstanbul, 1987.
4. Gökalp, Ziya. Türkleşmek, İslamlaşmak, Muasırlaşmak. – İstanbul, 2010.
5. Özkaya, Yılmaz. Ahmet Ağaoğlu’nun Hüseyinzade Ali Bey’e Mektupları. // “Türk Yurdu” dergisi. Cilt 31 (63). Sayı: 284 (645). Basıldığı Tarih: 01.04.2011.
6. Ülken, Hilmi Ziya. Türkiye’de Çağdaş Düşünce Tarihi. – İstanbul, 1994.
7. Ülken, Hilmi Ziya. Türkçülüğün ve Türk Sosyalizminin babası Ali Turan. // “Yeni İnsan”. Sayı: 84. Aralık, 1969.
8. Yöntem, Ali Canip. Ziya Gökalp’e Türkçülüğü Aşılayan Adam. // “Yakın Tarihimiz (Birinci Meşrutiyetten zamanımıza kadar)”. Cilt: 1. Sayı: 9. 26 Nisan 1962.

## Мыслители оставившие след в тюркском мире: Али бек Гусейнзаде и Ахмед бек Агаоглу

**Айтек Мамедова**
Доктор философии по философии, доцент
Институт философии и социологии НАНА
E-mail: a.z.m-9@mail.ru
ORCID ID: orcid.org/0000-0002-4915-6263

**Резюме.** В статье рассматривается творческое наследие великих азербайджанских мыслителей Али бека Гусейнзаде (1864-1940) и Ахмеда бека Агаоглу (1869-1939). Показано, что

взгляды Али бека Гусейнзаде на тюркскую мысль, такие как тюркизация, исламизация и европеизация, оказали влияние на турецкого общественного деятеля Зию Гекалпа. В статье говорится, что эта формула через Зию Гекалпа оказала влияние на основателя Азербайджанской Демократической Республики, выдающегося государственного деятеля – Мамед Эмин Расулзаде (1884-1955), и через эту формулу для обозначения идеи целостности Азербайджана нашли на флаге свое отражение понятия “тюркизация, исламизация, модернизация”.

В статье упоминается, что великая личность тюркского мира Ахмед бек Агаоглу родился в древнем городе Азербайджана Шуша, и там же получил начальное и среднее образование. Далее мыслитель учился в университете Сорбонны в Париже, будучи студентом, писал статьи о Востоке и отправлял их в издававшуюся в Тбилиси газету «Кавказ». Завершив образование, он вернулся на родину, через некоторое время вместе с семьей переехал в Турцию, где продолжил научную и политическую деятельность. В статье говорится, что деятельность Али бека Гусейнзаде и Ахмед бека Агаоглу оставила след в истории мысли и культуры тюркского мира. В 2024 году исполняется 160-летие со дня рождения Али бека Гусейнзаде и 155-летие со дня рождения Ахмед бека Агаоглу.

**Ключевые слова:** Азербайджан, тюркский мир, история, Али бек Гусейнзаде, Ахмед бек Агаоглу